**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

"Təsdiq edir
Tədris məsələləri üzrə prorektor v.
_______________dos. Zaur Məmməd
"____" ______ 2026-

**Fənn sillabusu**

**İxtisasın şifri və adı:** 6001014-Musiqi müəllimliyi.
**Fakültə**: Tarix-coğrafiya və incəsənət
**Kafedra:** Pedaqogika, psixologiya və incəsənət
**Fənn haqqında məlumat**:
**Fənnin adı:** S/f Əsəri üzdən (notdan) ifa
**Kodu:** İPFS-B06
**Tədris ili:** II (2025- 2026) Semestr IV
**Tədris yükü:** Cəmi: 90 saat, Auditoriya saatı 30 saat (30 saat məşğələ)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 3 kredit
**I.Müəllim haqqında məlumat:**
**Soyadı, adı, ata adı, elmi dərəcəsi və elmi adı:** Mahmudova İradə Rasim
**Kafedranın ünvanı:** Lənkəran ş., Ə.Məmmədov küçəsi 19, 2 saylı tədris korpusu
**Məsləhət günləri və saatı:** 4 cü gün saat 09.00-10.00
**E-mail ünvanı:** mahmudovairade042@gmail.com
**Məsləhət günləri və saatı:**

**I. Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**

A. Leşqorn " Etüdlər ", K. Çerni " Etüdlər " , Ü. Hacıbəyov əsərləri , İ .S. Bax polifonik əsərləri və s.

**Əlavə ədəbiyyat**

L . Yeqorova ,R. Siroviç " Fortepianoda çalmaq üçün "tədris vəsaiti.

**II. Prerekvizit fənlər:** Fənnin tədrisi üçün öncədən başqa bir fənnin tədrisinə zərurət yoxdur.

**III. Korekvizit fənlər:** Fənnin tədrisi ilə eyni zamanda başqa fənnin tədrisinə ehtiyac yoxdur.

**IV. Fənnin təsviri və məqsədi:**

Cəmiyyətimizdə yüksək ixtisaslı musiqiçi yetişdirmək , onlarda siyasi ideya hazırlığını tərbiyə etmək, pedaqoq kimi formalaşdırmaq musiqi müəllimləri qarşısında duran əsas məsələdir. Əsəri üzdən ifası fənninin tədrisi nəticəsində tələbələr Azərbaycan və xarici musiqi , habelə müasir bəstəkarların əsərləri və xalq musiqisi nümunələri ilə yaxından tanış olub, repertuar üzərində sərbəst işləmək , musiqi əsərini təhlil etmək , onun forma xüsusiyyətlərini və ifaçılıq çətinliklərini təyin etmək bacarığına malik olmalıdırlar . " Əsəri üzdən ifası " fənni II kursun II yarım ili ərzində tədris olunur və ilin sonunda imtahan ilə yekunlaşır . 30 saat dərs yükü ( 30 saat məşğələ ) nəzərdə tutulmuşdur. Proqrama 8 - 10 əsər daxil edilmişdir . İmtahan yaz semestri üçün iyun ayında keçirilir. Bu zaman 5 əsər ifa edilməlidir .

**VII. Davamiyyətə verilən tələblər:**

Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı LDU-nun Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə

CamScanner ilə skan edilib

alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:**

Fənn üzrə tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Yəni tələbələrin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı ( 50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə görə verilir.

Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:

- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.

Qiymət meyarları aşağıdakılardır:

*-10 bal- tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.*

*-9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.*

*-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*

*-7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir*

*-6 bal- tələbənin cavabı əsasən düzgündür.*

*-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*

*-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*

*- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;*

*- 1-2 bal- tələbənin mövzudan* qismən xəbəri var.

-0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahana qədərki ballar əsasında)

| **Bal aralığı (göstərilən ballar daxil olmaqla)** | **Hərflə işarəsi** | **Sözlə yazılışı** |
|---|---|---|
| 91-100 bal | A | əla |
| 81-90 bal | B | çox yaxşı |
| 71-80 bal | C | yaxşı |
| 61-70 bal | D | kafi |
| 51-60 bal | E | qənaətbəxş |
| 51-baldan aşağı | F | qeyri-kafi |

**IX.Davranış qaydalarının pozulması:**

Tələbə Universitetin daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X.Təqvim mövzu planı:**

Mühazirə: **30 saat laborator məşğələ.**



CamScanner ilə skan edilib

| № | Keçirilən məşğələ mövzularının məzmunu | Məş. | Tarix |
|---|---|---|---|
| 1 | "Etüd" notla üzdən ifa etmək | 2 | |
| 2 | "Etüd" texniki cəhətdən işlənməsi. | 2 | |
| 3 | "Etüd" dinamika üzərində işləmək | 2 | |
| 4 | "Etüd" temp üzərində işləmək | 2 | |
| 5 | "Menuet" notla üzdən ifa etmək | 2 | |
| 6 | "Menuet" dinamika üzərində işləmək | 2 | |
| 7 | Polifonik əsərlər üzərində işləmək | 2 | |
| 8 | İ.S. Bax "Menuet" | 2 | |
| 9 | İri həcmli əsəri notla üzdən | 2 | |
| 10 | İri həcmli əsərin dinamikası üzərində işləmək | 2 | |
| 11 | D. Türk "Kiçik rondo" notla üzdən ifa etmək | 2 | |
| 12 | D. Skarlatti "Sonata" notla üzdən ifa etmək | 2 | |
| 13 | Kiçik pyesi notla üzdən ifa etmək. | 2 | |
| 14 | D. Şteybelt "Adajo" notla üzdən ifa etmək | 2 | |
| 15 | Ü. Hacıbəyov "Axşam oldu" notla üzdən ifa | 2 | |
| | **Cəmi:** | **30s.** | |

**XI.Fənn üzrə tələblər:**

– Əsərlərin notdan ifası .
– Əsərin sağ və sol əlin ayrılıqda çalınması.
– Əsərin ritmi , tempi və dinamikasını işləmək.

**XII.Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**

- seminarlar və praktiki tapşırıqlar
- müstəqil iş (praktik nümunələrlə iş)

**XIII.Fənn üzrə təlim nəticələri:**

FTN 1. Tələbə verilmiş musiqi əsərinin not mətnini əvvəlcədən məşq etmədən ifa edir və ritmik melodik xətti düzgün müəyyənləşdirir.

FTN 2. Not işarələrini (ölçü, açar, alterasiya, ritmik dəyərlər və s.) operativ şəkildə tanıyır və ifa prosesində düzgün tətbiq edir.

FTN 3. Tempi, ölçünü və ritmi əsərin xarakterinə uyğun şəkildə ardıcıl ifa edir.

FTN 4. Dinamik və ifadə işarələrini (p.f.cres, legato, staccato və s. ) not mətninə uyğun şəkildə həyata keçirir.

FTN 5. İfa zamanı texniki səhfləri minimuma endirir və musiqi axınını dayandırmadan davam etdirmək bacarığı nümayiş etdirir.

FTN 6. Üzdən ifa zamanı musiqi mətnini təhlil edərək ümumi forma və ifadə xüsusiyyətlərini qavrayır, musiqi düşüncəsini ifadə əks etdirir.

**XIV.Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XV.Kollokvium sualları:**



CamScanner ilə skan edilib

**I. Kollokvium sualları**

1. Texniki əsərin ifası
2. Menuetin ifası
3. Əsərlərin təhlili.

**II. Kollokvium sualları**

1. Sonatanın ifası
2. Kiçik pyesin ifası
3. Əsərlərin təhlili.

**XVI.İmtahan sualları:**

1. 5 müxtəlif səpgili əsər

***S/f Əsəri üzdən (notdan) ifa fənninin sillabusu 6001014-Musiqi müəllimliyi ixtisası (proqramı) üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir.Sillabus "Pedaqogika, psixologiya və incəsənət" kafedrasının 13 fevral 2026-cı il tarixli iclasında (protokol №06) müzakirə edilərək təsdiq edilmişdir.***

Fənn müəllimi: B/m İ.R.mahmudova

Kafedra müdiri: Dos.A.X.Əliyev



CamScanner ilə skan edilib